*AMEA Filologiya və sənətşünaslıq, 2025, № 1* *ISSN 2663-4368*
*Səhifə: 34-38* *E-ISSN 2709-2699*
*https://doi.org/10.59849/2663-4368.2025.1.34*

# Başqırd ədəbiyyatının tarixi dövrləşdirilməsi məsələləri

**Aytən Qurbanova**
Filologiya üzrə fəlsəfə doktoru
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu
E-mail: filoloq86@mail.ru

**Annotasiya.** Ədəbiyyat istənilən xalqın ictimai-sosial, mədəni-mənəvi xüsusiyyətlərini özündə təcəssüm etdirən ən önəmli bazadır. Odur ki, bir xalqın tarixinin və ya ədəbiyyat tarixinin mərhələlərə ayrılması olduqca mühüm və gərəkli bir məsələdir. Başqırd xalqının ədəbiyyat tarixinin dövrləşdirilməsi ədəbiyyatın bütün növlərindəki təkamülü və ədəbiyyat tarixindəki yeri göstərməkdədir. Məqalədən də aydın olduğu kimi, bir çox başqa xalqların ədəbiyyatında baş verən proseslər başqırd xalqının ədəbiyyatından yan keçməmişdir.
**Açar sözlər:** Başqırd ədəbiyyatı, kobayır, ədəbiyyatın tarixi dövrləri, şəcərə və s.

**Məqalə tarixçəsi**: göndərilib – 25.02.2025; qəbul edilib – 12.03.2025

# Issues of historical periodization of Bashkir literature

**Ayten Gurbanova**
Doctor of Philosophy in Philology
Institute of Literature named after Nizami Ganjavi of ANAS
E-mail: filoloq86@mail.ru

**Abstract.** Literature is the most important base that embodies the social, cultural and spiritual characteristics of any nation. Therefore, dividing the history of a nation or the history of literature into stages is a very important and necessary issue. The periodization of the literary history of the Bashkir people shows the evolution of all types of literature and its place in the history of literature. As it is clear from the article, the processes occurring in the literature of many other nations did not bypass the literature of the Bashkir people.
**Keywords:** Bashkir literature, kobayir, historical periods of literature, shejer etc.

**Article history:** received – 25.02.2025; accepted − 12.03.2025

## Giriş / *Introduction*

Başqırd ədəbiyyatının mənşəyi şifahi xalq yaradıcılığından başlayır. Bizə gəlib çatan ən qədim əsərlər kobayırlar, yəni "Ural batır", "Akbuzat" dastanları və başqa epik abidələr təsdiq edir ki, artıq qədim dövrdə başqırdların kifayət qədər inkişaf etmiş bədii təfəkkürü olmuşdur. Şifahi xalq yaradıcılığının, xüsusən də, epik abidələrin sonrakı inkişafı yazılı başqırd ədəbiyyatının inkişafına da güclü təkan verdi.

Başqırd ədəbiyyatşünasları başqırd ədəbiyyatının inkişaf tarixini səkkiz əsas mərhələyə bölürlər. Ədəbiyyatın belə dövrləşdirilməsi konsepsiyası 1980-ci illərdə SSRİ Elmlər Akademiyasının Ural Bölməsinin Başqırd Elmi Mərkəzinin Tarix, Dil və Ədəbiyyat İnstitutunun bir qrup alimi tərəfindən hazırlanmışdır. 1990-cı ildə tanınmış başqırd ədəbiyyatşünası Qaysa Xusainovun rəhbərliyi ilə "Başqırd ədəbiyyatı tarixi" ədəbi-bədii nəşrinin birinci cildi

işıq üzü görmüşdür. Əsər ümumilikdə altı cilddən ibarətdir. Bu nəşrin əvvəlində başqırd ədəbiyyatının inkişaf mərhələləri göstərilmişdir.

Başqırd ədəbiyyatının inkişaf mərhələlərinin bu şəkildə təsnifatı hazırda da əhəmiyyətini itirməmişdir. Lakin ədəbi tənqid sabit qalmadığı üçün bu konsepsiya da müəyyən dəqiqləşdirilmə və yenilənmə tələb edir. Alimlər başqırd ədəbiyyatının inkişaf tarixini, əsasən, iyirminci əsrin bir neçə nəslinin ideallarından qaynaqlanan sovet ideologiyasına uyğun təhlil etmişlər. "Başqırd ədəbiyyatı tarixi"nin altı cildindən dördü sovet dövrünə həsr olunub və yalnız iki cilddə qədim dövrlərdən 1917-ci ilə qədər yaranan başqırd ədəbiyyatı təhlil edilir. Odur ki, başqırd sovet alimlərinin təklif etdiyi başqırd ədəbiyyatının inkişaf mərhələlərini qəbul edərək, onların başqırd ədəbiyyatşünaslığı üçün əhəmiyyətini qeyd etmək lazımdır. Başqırd ədəbiyyatında elmi mənbələrə əsaslanaraq ədəbiyyatın təkamülü prosesini aşağıdakı kimi təsnifatlandırmaq olar.

1. Qədim başqırd ədəbiyyatı qədim dövrlərdən XII əsrə qədərki dövrü əhatə edir. Başqırdların yazılı ədəbiyyatı bir çox türk xalqlarının ədəbiyyatındakı kimi, VII-VIII əsrlərə aid olan iki poema Orxon-Yeniseydən qaynaqlanır. Bu şeirlər qayalara, ayrı-ayrı daşlara yazılmış, Türk Xaqanlıqlarının, eləcə də Tonyukuk, Gültigin və Bilgə xaqanının tarixini tərənnüm etmişdir. VII-XI əsrlərə aid digər ümumi türk ədəbi əsərlərini də bu dövrə aid etmək olar: Yusuf Balasaqunlunun "Kutadqu bilik", Mahmud Kaşğarinin "Divani lüğət ət-Türk", Əhməd Yüqnəkinin "Xibətül-həqiqət" və s. əsərlər poetik ənənələrin ilkin mənşəyi hesab oluna bilər. Oğuznamələr, "Alpamış" və başqa epik əsərlər eramızın I minilliyində başqırd xalqının orijinal mədəniyyətini əks etdirir.

2. Bulqar dövrü başqırd ədəbiyyatı XII-XIII əsrin ortalarını əhatə edir. Bu mərhələdə Volqaboyu Bolqarıstanın inkişaf etmiş mədəniyyəti Volqaboyu Ural ədəbiyyatına böyük təsir göstərmişdir. Təvarix, qissə, dastan, rəvayət, hekayət və s. janrlarda əsərlər yaranır. "Zöhrə və Aldar" başqırd dastanıdır və həmin dövrün başqırd-bolqar əlaqələrini əks etdirir. "Buşman Qıpçaq", "Akman-Tükman" və bir sıra başqa epik abidələr başqırdların Qızıl Orda işğalçılarına qarşı mübarizəsinə həsr edilmişdir.

3. Qıpçaq dövrü başqırd ədəbiyyatı XIII əsrin ortalarından XVI əsrin birinci yarısınaqədərki dövrü əhatə edir. Bəzi alimlər bu dövrü iki mərhələyə bölürlər ki, bu da böyük ehtimalla tarixin və ədəbiyyatın inkişaf məntiqinə uyğundur. Onlar XIII əsrin ikinci yarısını və bütün XIV əsri Qıpçaq dövrünə aid edirlər. XV əsr və XVI əsrin birinci yarısı başqırd ədəbiyyatının noqay dövrü kimi təyin olunur. Burada milli ədəbiyyatın və ümumi türk ədəbi axınının vahid prosesi və tədricən fərqlənməsini, başqırdların şifahi və yazılı ədəbiyyatının inkişaf xüsusiyyətlərini və qarşılıqlı əlaqəsini, janrların əlavə olunmasını və yeni poetik formaların yaranmasını izləmək olar. Həmin dövrün başqırd ədəbiyyatı məşhur Həbrainin, Hasan Kayğının, Kaztuqanın əsərləri ilə təmsil olunur. Şalğız Yyrau, "İdukey və Muradım" kobayırı "Mergen və Mayanxılu", "Sərtay soyunun sonuncusu" rəvayətləri, sufiyanə əsərlər, qissa, rübai və s. əsərlər buna nümunə ola bilər.

Türk ədəbiyyatının klassik əsərlərindən olan bir çox pantürk epik əsərlər Xarəzminin "Xosrov və Şirin", "Məhəbbətnamə", Hüsam Katib "Cümzümə Sultan", Saif Sarayın "Gülüstan Bit-Türklər" və "Süxeyl və Güldürsün" poemaları" və s. XIII-XVI əsrlər dövründə başqırdların bədii fikrinin inkişafına güclü təsir göstərmişdir.

4. Rus dövrü başqırd ədəbiyyatı XVI əsrin ortaları XVIII əsrləri əhatə etmişdir. XVI əsrin ortalarında başqırdların Rusiya dövlətinə birləşdirilməsi sovet dövrü tədqiqatçılarının qeydlərinə görə xalqın sosial və mədəni həyatında dönüş nöqtəsi hesab olunurdu. Başqırd sesenləri (rəvayətçiləri) ilk dəfə öz əsərlərində – kobayırlarda Rusiyaya qoşulmasını əks etdirmişlər. Gələcəkdə sesenlərin yaradıcılığı bu dövrün bütün başqırd bədii fikrinin inkişafında əvəzsiz rol oynamışdır. Sesen Kubagush, Karas Erense, Baik Aydar təkcə əsərləri ilə deyil, həm də dövrün müdrik adamları, xalq filosofları, müəllimləri, tarixçiləri və başqırd şifahi xalq yaradıcılığının tədqiqatçıları kimi tanınırlar.

Başqırd şəcərələri nəsil şəcərəsi mənasında olmaqla yanaşı, həm də ədəbi əsər forması idi. Əsasən, onlar Başqırdıstan-Ural bölgəsində baş verən hadisələri əks etdirmiş, xalqın həyatında tarixi məqamları əhatələmişdir. Şəcərələrdə, xüsusən, qəhrəmanlıq tərənnüm edilirdi. Qara-

çay-qıpçaq tayfasının şəcərələri nəsr dastanı, üşegen tayfasının şəcərələri poetik formada, kobayır üslubunda, bürzyan tayfasının şəcərələri isə nəsrlə idi.

Bu ədəbi dövrün əsas janrları təvarix və hikayətlərdir. Bu janrlar erkən-orta əsrlərdə yaransa da, bu dövrdə milli kimlik qazanmışdır. Bədii fikrin inkişafında səyahətnamələrin də xüsusi rolu var. Onlar ölkələri gəzərkən, əsasən Məkkəyə Həcc ziyarəti zamanı və ya tacirlərin müxtəlif ölkələrə səyahəti zamanı yazılmışdır. Bizə çatan ilk başqırd səyahətnaməsi XVIII əsrin sonlarına təsadüf edir. Ən irihəcmli və mənalı səyahətnamə 1751-ci ildən 30 il müddətində bir çox ölkələri gəzərək vətənə geri dönən tacir İsmayılın qələmə aldığı "İsmayıl ağa səyahətnaməsi"dir.

Publisistik janrlar XVII əsrdən inkişaf etməyə başladı. Başqırdların Rusiya çarlarına ünvanladığı rəsmi məktublar, ərizələr, sərəncamlar təkcə rəsmi iş sənədləri kimi deyil, həm də bədii publisistik üslubda olan əsərlər kimi tanınmağa başladı. Onların arasında 1755-1756-cı illər başqırd üsyanının ideoloqu Batırşanın məktubu publisistik pafosu, ictimai-tarixi məzmunu, sənədli və bədii konturları ilə xüsusilə seçilir. Puqaçov üsyanı dövründən bizə çoxlu sayda rəsmi publisistik əsərlər gəlib çatmışdır. Bunlar E.Puqaçovun başqırd dilinə tərcümə edilmiş manifest və fərmanları, yazılı müraciətləri, çıxışları, üsyanın başqırd lideri Salavat Yulayevin xalq arasında döyüşə çağırışlarıdır.

Yerli sufi şairləri Qabrahim Usman və Maul Kuluinin yaradıcılığı bütün Ural-Povojye ərazisində sufi ədəbiyyatının inkişafında mühüm rol oynamışdır. Başqırd xalqının şairi və qəhrəmanı Salavat Yulayevin poeziyası XVIII əsrin ən parlaq lirikasıdır. Şair və alim Tazhetdin Yalsıqul əl-Başkordi XVIII əsrin sonlarında başqırd ədəbiyyatının inkişafında mühüm rol oynamışdır.

5. XIX əsrin birinci yarısı (1800-1860) başqırd ədəbiyyatı. XIX əsrin 60-cı illərində islahatlara səbəb olan cəmiyyətdə baş verən sosial-iqtisadi dəyişikliklərlə əlaqədar belə bölgü şərti xarakter daşıyır. Bu dövrdə klassik ədəbi ənənələr də qorunub saxlanılır. Dövri mətbuatın yaranması və inkişafı, böyük tirajlı çap kitablarının nəşri, Ural və Volqaboyu mətbəələrin sayının kəskin artması Başqırdıstanın ədəbi həyatına müsbət təsir göstərmişdir. Əlyazma variantında əvvəllər mövcud olan bir çox kitab və əsərlər çap kitablarında və jurnallarda hər yerdə yayılmağa başladı ki, bu, başqırd əhalisi arasında bədii ədəbiyyata böyük maraq oyatdı.

Yazılı ədəbiyyatda texniki sıçrayış olmasına baxmayaraq, şifahi ədəbiyyat hələ də xalq arasında populyarlığını itirməmişdi. Bir çox epik abidələr, folklorun bir çox janrları başqırdların bədii fikrinin tərkib hissəsi idi. XIX əsrin birinci yarısında yaşamış başqırd səsənləri İşmuxamet, Buranbay və başqalarının yaradıcılığında şifahi xalq yaradıcılığına, əsrlər boyu toplanmış mənəvi-əxlaqi sərvətlərə, söz sənətinə xüsusi diqqət müşahidə etmək olar.

XIX əsr başqırd ədəbiyyatına nəzər salsaq deyə bilərik ki, sufizm və maarifçilik kimi istiqamətlər paralel şəkildə inkişaf etməkdə idi. Məşhur başqırd sufi şairləri olan Abdelmanih Kargalı, Hibatulla Salihova, Şəmsəddin Zəkinin yaradıcılığında əsasən tərbiyəvi motivlər və ideyalar öz əksini tapmışdır.

XIX əsrin birinci yarısında başqırd bədii fikrinin inkişafında maarifçi alimlər Salixan Kuklyashev, Mirsalih Biksurin və başqaları mühüm rol oynamışlar. Onların bir çoxu həm də qabaqcıl təhsil ocaqlarında müəllim kimi fəaliyyət göstərmişdilər. Hətta bəzi tələbələri sonralar məşhur başqırd yazıçı və şairləri oldular.

6. XIX əsrin ikinci yarısı (1860-1900) başqırd ədəbiyyatı. XIX əsrin ikinci yarısından başlayaraq rus ədəbiyyatının təsiri altında Qərb ədəbiyyatı üçün xarakterik olan janrlar intensiv inkişaf etməyə başladı: roman, hekayə, dram, komediya və s. Həmin mərhələdə bu janrlar ədəbiyyatda geniş vüsət almış və başqırd ədəbiyyatını Şərq və Qərbin şanlı ənənələri ilə zənginləşdirmişdi. XIX əsrin ikinci yarısı ədəbiyyatının səciyyəvi cəhəti maarifçilik realizmi metodunun formalaşması və inkişafıdır. Maarifçilik realizminin ən görkəmli nümayəndələri başqırd şairi Miftaxetdin Akmulla, Məhəmmədsalim Umetbayev, Rza Fəxrəddinovdur. Onlar öz əsərləri, elmi-metodiki işləri və pedaqoji fəaliyyətləri ilə hər yerdə maarifçilik ideyasını təbliğ edirdilər. Bu dövrdə sufi yönümlü əsərlər hələ də kifayət qədər yazılırdı. Qali Şükür bir sıra tərbiyəvi xarakterli elmi əsərlər müəllifi olsa da, təsəvvüf ideyalarına da az təsadüf edilmirdi. Bu dövrün poeziyası M.Akmullanın poe-

tik əsərləri ilə təmsil olunurdu. Q.Şükuruy, M.Ümətbəy, Nuğman, Xüsniyar, Süleyman, R.Fəxrətdinovun, Z.Hadinin, Q.Şükürüyün və başqalarının səyahətnamələri, nəsr və povestləri də xüsusi yer tuturdu. Dramaturgiya əsasən əlyazma variantlarında mövcud olmuşdur. Pyeslərin bizə gəlib çatan əlyazma variantlarına əsasən demək olar ki, onlar həcmcə kiçik idi, komediyalar üstünlük təşkil edirdi, bir çox hallarda müəlliflər göstərilmirdi.

7. XX əsrin əvvəllərində başqırd ədəbiyyatı (1900-1917). XX əsrin əvvəlləri başqırd ədəbiyyatının mərkəzində tənqidi realizmin formalaşması, romantik istiqamətin təzahürü, janr və üslub formalarının zənginləşməsi məsələləri dayanırdı. Burada başqırd ədəbiyyatını fərqli inkişaf səviyyəsinə qaldıran yeni nəsil şairlər, nasirlər, dramaturqlar tanınmağa başlayırdı.

Məcit Qafuri, Safuyan Yaxşıqulova, Daut Yultya, Şeyxzadə Babiçin poetik əsərləri həmin dövr Başqırd Poeziyasının Qızıl Fonduna daxil oldular. Nəsrdə ən məşhur hekayələr Avzal Tağırov, Məcit Qafuri, Zakir Hadi və başqalarına aiddir. Ziya Ümməti, Kəbirə Tuykin, Məhəmmədhadi Saqdi, Əhnəf (Ahnaf), İsyanberdin, Fayzi Vəliyev, Bulat Rəfikinin yaradıcılığı ilə Başqırd nəsri və dramaturgiyası sürətlə inkişaf etməyə başlayır. Təbii ki, həmin dövrdə əhalinin marağının da artması diqqətçəkən məqam idi. Nəticədə yarımpeşəkar teatr truppaları, məsələn, “Şirkət”, “Sayyar” və s. yarandı. Avzal Tağırovun “Tələbələr”, Fazıl Tuykinin “Cəmiyyət qurbanları”, “Vətən qəhrəmanları”, Qabderrauf Niyazbayevin “Qəlimov qardaşları”, Gilyaz Qumerskinin “Müharibədə”, “Salavat” pyesləri, Əbdülkadir İnanın “Batır” əsəri dövrün seçilən əsərləri idi.

8. Sovet dövrü başqırd ədəbiyyatı və ən yeni ədəbiyyat (1918-2010). Bu dövr bir çox başqırd ədəbiyyatşünasları tərəfindən tədqiq edilmiş və bu mərhələnin dövrlərə bölünməsi üçün müxtəlif variantlar təklif edilmişdir. Başqırd ədəbiyyatşünaslığında da qeyd edildiyi kimi, həmin dövrü dörd mərhələyə bölmək olar:

1) 1917-1941-ci illər – başqırd sovet ədəbiyyatının təşəkkülü dövrü;

Bu mərhələyə vətəndaş müharibəsi illəri, iyirminci və otuzuncu illər daxildir. XX əsrin 20-30-cu illərinin başqırd ədəbiyyatında poeziya, nəsr və dramaturgiyada milli ədəbiyyatın ən görkəmli yazıçıları – Məjit Qafuri, Daut Yultiya, Qaynan Xayri, Avzal Tağırov, Tuxvət Yanabi, İmai Nasirinin yaradıcılığı ilə təmsil olunur.

2) 1941-1957-ci illər – Böyük Vətən Müharibəsi dövrü və müharibədən sonrakı illərin başqırd ədəbiyyatı;

1941-1957-ci illər müasir başqırd ədəbiyyatının başlanğıcı hesab olunur. Böyük Vətən Müharibəsi dövrü və müharibədən sonrakı illərin başqırd ədəbiyyatı ölkədəki siyasi vəziyyətə görə bədii fikrin inkişafı baxımından kifayət qədər ağırdır. Bu mərhələdə nəsr, poeziya, dramaturgiya, eləcə də uşaq ədəbiyyatı, tənqid və ədəbi tənqid ən sərt senzuraya məruz qaldı. Buna baxmayaraq, Muxamet Buranqulov, Rəşit Niqməti, Qərif Qumer, Bəyazit Bikbay, Xanif Kərim, Sagitt Aqiş, Salih Kulibay, Kirey Mergen, Kadir Dayan və başqalarının yaradıcılığı fonunda başqırd ədəbiyyatı inkişaf edirdi.

3) XX əsrin 60-70-ci illərinin başqırd ədəbiyyatı (1957-1980); Bu dövrün ədəbi irsi ilk növbədə, janr çeşidləri, mövzu zənginliyi və yazıçıların yaradıcılıq potensialının rəngarənliyi ilə seçilir. Bu dövr ölkənin ictimai-siyasi həyatında, şəxsiyyətin mənəvi yeniləşməsində reallığın estetik dərk edilməsində, ədəbi inkişafın mürəkkəb proseslərində öz əksini tapmış dərin dəyişikliklərlə səciyyələnir. Xədiya Davletşinanın, Mustai Kərimin, Zeynəp Biişevanın bir çox əsərləri, eləcə də Nəzər Nəcmi, Ənvər Bikçentayeva, Əkrəm Vəli, Dinis İslamov, Yanıbay Xammatov, Fərit İsyanqulov, Hakim Gilyajev, Musa Qali, İbrahim Abdullin, Nazhip Asanbayev, Rami Qaripov, Rəşit Nəzərov, Azat Abdullin və başqaları başqırd ədəbiyyatının klassiklərinə çevrilmişdir.

4) Başqırd ədəbiyyatı 1980-2010 (yeni dövr ədəbiyyat). Bu dövr xalqın sosial-mənəvi həyatında böyük dəyişikliklər, milli mədəniyyətin daha da zənginləşməsi, eyni zamanda, mənəvi dəyərlərin yenidən qiymətləndirilməsi və nəticədə keçid dövrü ilə səciyyələnir. Tənqidi realizm meyllərinin canlanması görünür. Yenidənqurma və yenidənqurmadan sonrakı illərdə nəsr, poeziya, dramaturgiya, ədəbi tənqid və tənqid sürətlə inkişaf edir. Müasir mərhələdə Axiyar Hakimovun, Bulat Rafikovun, Rəşit Sultanqareyevin, Nuqman Musin, Katibə Kinzyabulatova, Gülfiyyə Yunusova, Ravil Bikbay,

Nail Qaytbay, Florida Bulyakov və bir çox başqalarının əsərləri Başqırd ədəbiyyatının inkişafına öz töhfələrini vermişdir.

Beləliklə, qeyd edə bilərik ki, ədəbiyyatın təkamülü ictimai-tarixi hadisələrlə, xalqın mənəvi həyatı ilə sıx bağlıdır. Ədəbiyyatın mərhələləri və onun təsnifatı ədəbiyyatın tarixi inkişafını əks etdirir.

## Ədəbiyyat / *References*


1. Başkurt edebiyatı ve folkloru üzerine yayımlanan kitaplar. Bikbayev, R., İbrahimov, G. (2004).
2. Başkurt yazılı edebiyatı I: Başlangıçtan Günümüze Kadar Türkiye Dışındaki Türk Edebiyatları Antolojisi-Başkurt Edebiyatı I. Cilt. 29. Ankara: Kültür Bakanlığı Yayınları. Süleymanov, A., İbrahimov, G., Ergun, M. (2005).
3. Başkurt Yazılı Edebiyatı II: Başlangıçtan Günümüze Kadar Türkiye Dışındaki Türk Edebiyatları Antolojisi-Başkurt Edebiyatı II. Cilt 30. Ankara: Kültür Bakanlığı Yayınları. Süleymanov, A. İbrahimov, G., Ergun, M. (2014).
4. https://499c.ru/az/drevnie-bashkiry-istoricheskie-svedeniya-territoriya-rasseleniya-kultura/
5. https://ekitap.ktb.gov.tr/TR-78580/baskurt-edebiyati--i29-cilt.html


## Вопросы исторической периодизации Башкирской литературы


**Айтен Гурбанова**
Доктор философии по филологии
Институт литературы имени Низами Гянджеви НАНА
E-mail: filoloq86@mail.ru



**Резюме.** Литература является важнейшей базой, воплощающей социальные, культурные и духовные особенности любого народа. Поэтому деление истории народа или истории литературы на этапы является очень важным и нужным вопросом. Периодизация истории литературы башкирского народа показывает эволюцию всех видов литературы и ее место в истории литературы. Как видно из статьи, процессы, происходящие в литературе многих других народов, не обошли стороной и литературу башкирского народа.


**Ключевые слова:** башкирская литература, кобайыр, исторические периоды литературы, генеалогия и др.